**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ İNİKASI (1979-2019)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Sabir Alim oğlu Əsədov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Vüqar Mikayıl oğlu Əhməd**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

filologiya elmləri doktoru, professor
**Yeganə Nəhmətulla qızı İsmayılova**

filologiya üzrə fəlsəfə doktoru
**Fikrət Süleyman oğlu Əhmədov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
__________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
__________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
__________________ **İmamverdi Yavər oğlu Həmidov**

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cənubi Azərbaycan poeziyasının son 200 ili çox çətin və gərgin sınaqlardan çıxmış, əzab-əziyyətli bir mərhələ keçmişdir. Poeziyada məzmun və keyfiyyət yenilikləri, milli-mənəvi dəyərlər, bu dəyərlərin qorunması, ədəbi yeniliklər və bu yeniliklərin təşəkkül tapması dövrün ən diqqətçəkən məsələlərindəndir.

1979-2019-cu illər Cənubi Azərbaycan poeziyası bir çox xüsusiyyətləri ilə diqqəti cəlb edir. Bu dövr aralığında istər Cənubi, istərsə də Şimali Azərbaycan ədəbiyyatında bir çox şair və yazarlar yetişdi, yeni şeir şəkilləri və mükəmməl poetik əsərlər meydana gəldi.

İran inqilabı ərəfəsində Cənubi Azərbaycanda baş verən ictimai-siyasi canlanma, dövrün yetişdirməsi olan ədəbi hərəkat barədə xeyli əsər yazılmış, hadisələrin mahiyyətinə işıq salan çoxlu fikir və mülahizələr irəli sürülmüşdür. Lakin aparılan araşdırmalar göstərir ki, tədqiqi bu gün hər zamankından daha aktual məna kəsb edən ədəbi hərəkat barədə hər şeyin deyildiyini iddia etmək elmi-nəzəri və əməli cəhətdən doğru olmaz.

Dissertasiya işində 1979-2019-cu illər Cənubi Azərbaycan ədəbiyyatına və poeziyasına aid əsas xüsusiyyətlər nəzərdən keçirilmiş, Ümummilli lider Heydər Əliyevin bu sahəyə diqqəti və qayğısı önə çəkilmiş, elmi müqayisələr, təhlillər əsasında Cənubi Azərbaycan poeziyasının həm klassiklərimizin irsinə, həm Şimali Azərbaycan, həm də Avropa və Amerika ədəbiyyatına zəruri ədəbi inteqrasiyası nümunələr əsasında diqqətə çatdırılmış, Şəhriyar, Səhənd, Həbib Sahir və s. tanınmış şairlərin yaradıcılığını müasirləri ilə birləşdirən, eləcə də fərqləndirən ən mühüm amillər araşdırılmış, onların yaradıcılığı, gənc nəslə məktəb rolu oynamaları məsələsi tədqiqata cəlb edilmişdir.

Məlumdur ki, həm İran inqilabı ərəfəsində, həm də ondan sonrakı dövr ərzində ictimai-siyasi hadisələr tüğyan etmiş, fars şovinist rejimi Cənubi Azərbaycanlılara qarşı açıq-aşkar düşmənçilik mövqeyi nümayiş etdirmiş, xalqın dili, ədəbiyyatı, folklorunu unutdurmağa çalışmışdır. Bu dövr eyni zamanda milli şüurun oyandığı bir dövr idi. Milli şüurun oyanması cənublu şair və

yazıçıların yazmaq eşqini daha da alovlandırmış, onları eyni mövqe və amal ətrafında birləşdirmişdir. Bu dövrdə ədəbiyyat, xüsusilə onun əsas hissəsini təşkil edən poeziya, gözəlliyi, bəşəri dəyərləri, məhəbbəti təbliğ etməklə bərabər, dövrün ümummilli əhəmiyyət kəsb edən ictimai-etik məsələlərinin təbliği, başa düşülməsi üçün əsas vasitəyə çevrilir, xalqın özünüdərkində mühüm rol oynamağa başlayırdı. Belə bir şəraitdə Cənubi Azərbaycan poeziyası vətənpərvər şairlərin səyi nəticəsində daha da inkişaf edir, bütün çətinliklərə və məhrumiyyətlərə baxmayaraq, yeni forma və məzmun qazanırdı.

İran inqilabından sonra Cənubi Azərbaycanda ana dilində mətbuat nümunələrinin və poetik parçaların çoxalması, həmin nümunələrin bir qisminin müasir tələblərə uyğun, yüksək səviyyədə çap olunması, bu əsərlərin xalq dilinə yaxınlığı anadilli poeziyanın da formalaşması üçün real zəmin yaratdı və bu poeziya, əsasən, 1980-ci illərin ikinci yarısından inkişaf etməyə başladı.

İran inqilabından sonra Cənubi Azərbaycan ədəbiyyatında klassik şeirlə yanaşı, poeziyada yeni, modern şeirin də formalaşıb inkişaf etməsi bədii fikrin daha intəhasız şəkildə ifadə olunması zərurətindən irəli gəlirdi. Məhz bu baxımdan istər Şimali Azərbaycan, istərsə də Cənubi Azərbaycan ədəbiyyatında yeni şeir şəkilləri ilə mükəmməl poetik əsərlər yaradan onlarla şair yetişdi.

Mövzunun aktuallığını təmin edən amillərdən biri də 1980-ci illər və ondan sonra Cənubi Azərbaycan poeziyasında özünəməxsus dəsti-xətti olan şairlərin yaradıcılıqlarına və ortaya çıxardıqları əsərlərdən nümunələrə yer verilməsi, onların tədqiqat obyekti kimi təhlil olunmasıdır.

Dissertasiyada diqqəti çəkən vacib məsələlərdən digəri isə 1990-cı illər ədəbi nəslinin yaradıcılığında meydana çıxan xüsusiyyətlərin araşdırılması, analitik təhlili, onlara elmi-tənqidi qiymətin verilməsidir.

1979-2019-cu illər ərzində yaranan poeziyada siyasi-publisistik üslubla yanaşı, analitik-psixoloji üslubun müxtəlif çalarlarına və şəkillərinə müraciət olundu və bundan poeziyanın mənəvi-etik məzmunu da dolğunlaşmağa başladı. Bu mənada şeirimiz Qulamrza Səbri Təbrizinin, Məlihə Əzizpurun, Nigar Xiyavinin, Türkan Nəsiminin, Eldar Muğanlının, Aqşin Ağkəmərlinin, Hüseyn

Əlimuradinin, Atilla Maralanlının, Rüqəyya Kəbirinin, Rəsul Yunanın, Sayman Aruzun və başqa şairlərin yaradıcılığında mühüm yeniliklər əldə etmişdir. Bu dövrdə meydana çıxan şairlərin əksəriyyəti Şəhriyar, Səhənd, Sahir xəzinəsindən bəhrələnərək yeni ədəbi incilər yaratdılar və çağdaş Cənubi Azərbaycan poeziyasında həmişəyaşar poetik ənənənin daşıyıcısına çevrildilər.

İran İslam İnqilabından sonra Cənubi Azərbaycanda gedən ədəbi proses Vüqar Əhmədin "Cənubi Azərbaycan poeziyası (1950-2010)" və "Cənubi Azərbaycan poeziyasında yeni mərhələ (2001-2010-cu illər)", Almaz Məmmədovanın "Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər, şeir və nəsr)", Bahar Bərdəlinin "Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990)", Sabir Əmirovun "Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990-cı illər)", Ələkbər Radpur Əlincəqin "Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005)", Esmira Fuadın "Güney Azərbaycanda çağdaş ədəbi proses (2011-2014)" və "XX əsr Güney Azərbaycan epik şeiri", Pərvanə Məmmədlinin "Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər" və "Cənubi Azərbaycanda ədəbi-bədii prosesin inkişaf mərhələləri", Yeganə Hacıyeva "İran İsam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005)", Esmira İsmayılova "Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi", Nadir Nadirpur "Məşrutə inqilabından sonra fars şeirində baş vermiş dəyişikliklərə bir baxış" [1] kimi

[1] Əhməd, V. Cənubi Azərbaycan poeziyası (1950-2010) / V.Əhməd. – Bakı: MBM, – 2014. – 419 s.; Əhməd, V. Cənubi Azərbaycan poeziyasında yeni mərhələ (2001-2010- cu illər) / V.Əhməd. – Bakı, – 2010. – 84 s.; Məmmədova, A.Ə. Cənubi Azərbaycan ədəbiyyatının inkişaf mərhələləri (1946-1990-cı illər, şeir və nəsr) / filologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 1993. – 344 s.; Bərdəli, B. Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990) / B.Bərdəli. – Bakı: Elm və təhsil, – 2012. – 116 s.; Əmirov, S.N. Cənubi Azərbaycan milli-demokratik ədəbiyyatı (1941-1990-cı illər): / filologiya elmləri doktoru dis. / – Bakı, 2001. – 290 s.; Əlincəq, Ə.R. Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005) /filologiya üzrə fəlsəfə doktoru dis. / – Bak, 2013. – 136 s.; Fuad, E. Güney Azərbaycanda çağdaş ədəbi proses (2011-2014) / E.Fuad. – Bakı, – 2016. – 176 s.; Fuad, E. XX əsr Güney Azərbaycan epik şeiri / E.Fuad. – Bakı: Elm və təhsil, – 2016. – 371 s.; Məmmədli, P. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər / P.Məmmədli. – Bakı: Sabah, – h.1. – 2015. – 200 s.; Məmmədli, P. Cənubi

tədqiqatlarında müxtəlif istiqamətlərdən tədqiq edilsə də, 1979-cu ildən sonrakı qırx il boyunca müasir Cənubi Azərbaycan poeziyasında milli-mənəvi dəyərlərin bədii inikası xüsusi monoqrafik tədqiqat mövzusu olmamışdır. Bu baxımdan "Müasir Cənubi Azərbaycan poeziyasında milli-mənəvi dəyərlərin bədii inikası (1979-2019)" mövzusunda dissertasiya işi aktualdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın adından göründüyü kimi, tədqiqatın obyekti 1979-2019-cu illər Cənubi Azərbaycan şeiri, həmin dövrün poeziyasını özündə ehtiva edən müxtəlif antologiya və məcmuələrdə, qəzet və jurnallarda, kitablarda yer almış bir sıra poetik nümunələr, lirik və epik əsərlərdir. Dissertasiya işində həmçinin İran İslam İnqilabından sonra işıq üzü görmüş müxtəlif müəlliflərə aid elmi əsərlərdən, avtoreferatlardan, Cənubi Azərbaycan ədəbiyyatı antologiyalarından, internet saytlarındakı uyğun materiallardan, mövzu ilə bağlı tarixi mənbələrdən də istifadə olunmuşdur.

Tədqiqatın predmeti isə 1979-2019-cu illərdə ərsəyə gələn Cənubi Azərbaycan şeirində milli-mənəvi dəyərlərin əks olunması məsələlərinin təhlilidir. Dissertasiya işində Cənub şeirinin əsas inkişaf meyilləri, müxtəlif poetik nəsillərin özünəməxsus yaradıcılıq yolu, onların fərqli və orijinal cəhətləri, ayrı-ayrı şairlərin fərdi yaradıcılıq üslubları da nəzərdən keçirilir.

Dissertasiya işində tarixi faktlara istinad olunaraq dövrün ictimai-siyasi mənzərəsi barədə təsəvvür yaradılmış, inqilabi proseslərin Cənubi Azərbaycan poeziyasında rolu məsələsinə də toxunulmuşdur. Tədqiqat işində milli-mənəvi dəyərlərin poeziyada inikası məsələlərindən, ana dilinin milliliyin əsas mühafizə vasitəsi kimi rolundan danışılmışdır.

---

Azərbaycanda ədəbi-bədii prosesin inkişaf mərhələləri / P.Məmmədli. – Bakı, – 2021. – 318 s.; Hacıyeva, Y. İran İsam inqilabından sonra cənubi azərbaycanlıların ana dili uğrunda mübarizəsi (1979-2005) / Y.Hacıyeva. – Bakı: Adiloğlu, – 2017. – 306 s.; İsmayılova, E.X. Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi /filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2023. – 30 s.; Nadirpur, N. Məşrutə inqilabından sonra fars şeirində baş vermiş dəyişikliklərə bir baxış / N.Nadirpur. – Bakı: Elm və həyat, – 1953. – 382 s.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın başlıca məqsədi Cənubi Azərbaycanın müasir şeirini, habelə onun inkişaf yollarını, mərhələlərini, janr, mövzu rəngarəngliyini araşdırmaq olmaqla yanaşı, tədqiq olunan dövrün şairlərini geniş oxucu kütləsinə tanıtdırmaq və ədəbiyyatda oynadıqları rolu aşkar etməkdir.

Tədqiqat işinin əsas qayəsi 1979-cu ildən bütün çətinliklərə və qadağalara baxmayaraq inamlı addımlarını atan ədəbi hərəkatın tarixini izləmək, onun mövzu və mündəricəsinin mahiyyətini qiymətləndirməkdən ibarətdir.

Təqdim edilən əsərdə dissertantın qarşısına qoyduğu məqsədlərdən biri də 1979-2019-cu illər Cənubi Azərbaycan ədəbi prosesinin mərhələlərini müəyyənləşdirmək, ədəbiyyatın inkişaf səviyyəsini, ayrı-ayrı yazarların oynadığı rolu, ədəbi cərəyanları, Cənubla Şimalın qarşılıqlı ədəbi əlaqəsini araşdırmaq və bütün bunları sistemli şəkildə elmi təhlil süzgəcindən keçirməkdir.

Deyilənləri gerçəkləşdirmək üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

– Məsələnin həlli üçün ictimai-tarixi və ədəbi-elmi mühiti öyrənmək;

– Tədqiq olunan dövr sənətkarlarının əsərlərini təhlilə cəlb etmək, şairlər haqqında qısa məlumat vermək;

– Dövrün poetik nümunələrinin ideya-məzmun, janr istiqamətini müəyyənləşdirmək;

– Tədqiqata cəlb edilən şairlərin yaradıcılığında xalq ədəbiyyatı, folklor və klassik ədəbi ənənənin təsirini müəyyənləşdirmək;

– Mərsiyə ədəbiyyatına müraciət etmiş sənətkarların yaradıcılığını ümumbəşəri aspektdən təhlil etmək;

– Satirik janrda yazılmış əsərləri dövrün hadisələri fonunda tədqiqata cəlb etmək;

– 1979-cu il və ondan sonrakı Cənubi Azərbaycan poeziyasının əsas problemlərinin elmi şərhini vermək.

**Tədqiqatın metodları.** Tədqiqat işi tarixi-müqayisəli ədəbiyyatşünaslığın prinsiplərinə və qazandığı uğurlara əsaslanır. Dissertasiyada tədqiqata cəlb edilən sənətkarların bədii əsərləri təhlil edilərkən elmi-nəzəri şərh sahəsində Azərbaycan və dünya ədəbiyyatşünaslığının zəngin təcrübəsindən də bəhrələnmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. 1979-2019-cu illərdə Cənubi Azərbaycan ədəbi prosesində milli mənəvi dəyərlərə, xüsusilə ana dilinin təbliğinə böyük önəm verildiyi izlənilir;

2. Cənubi Azərbaycanın ictimai-siyasi və ədəbi həyatında milli-mənəvi dəyərlərə sahib çıxılmasında, ümumiyyətlə Cənubi Azərbaycanla bağlı məsələlərdə ulu öndər Heydər Əliyevin bir ümummilli lider kimi xidmətləri danılmazdır. Tədqiqata cəlb olunan materiallar onu söyləməyə imkan verir ki, Şimali Azərbaycanda yaşayan Güneyli ədiblərimiz onun qayğısını daim hiss etmişlər;

3. İran İslam İnqilabından sonra Cənubi Azərbaycan ədəbiyyatının özünəməxsus xüsusiyyətlərini nəzərdən keçirdikdə ədiblərin ana dili, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verdiyini görür, ayrı-ayrı ədəbi simaların Cənubi Azərbaycan ədəbiyyatının inkişafındakı rolunu daha yaxşı müəyyən edə bilirik;

4. 1979-2019-cu illər ərzində ayrı-ayrı sənətkarların Cənubi Azərbaycan ədəbiyyatında novatorluq meyillərinin gücləndiyi gözə çarpır. Bu isə daha çox Şimali Azərbaycanda gedən ədəbi prosesin təsiri ilə izah oluna bilər;

5. 1979-2019-cu illər Cənubi Azərbaycan ədəbi prosesinin mərhələlərini müəyyənləşdirərkən Azərbaycanın həm Şimalında, həm də Cənubunda baş verən ictimai-siyasi prosesləri nəzərə almaq vacibdir;

6. 1979-2019-cu illər Cənubi Azərbaycan ədəbi prosesinin mərhələlərini təxminən 1979-1987-ci illər, 1988-1992-ci illər, 1993-2003-cü illər və nəhayət 2004-2019-cu illər kimi dövrləşdirmək olar. Bu isə ədəbiyyatın özünəməxsus xüsusiyyətlərini diktə edən hadisələrlə: İran İslam İnqilabından sonra nisbi milli-mənəvi azadlıq şəraitinin formalaşması, ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və Qarabağ ətrafında baş verən proseslər, Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasında ali siyasi rəhbərliyə qayıdışı və otaylı-butaylı Azərbaycan xalqının ümid çırağına çevrilməsi, Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərliyi müddətində Azərbaycanın regionda və dünyada lider dövlətlərdən birinə çevrilməsi ilə bağlıdır;

7. 1979-2019-cu illər aralığında Cənubi Azərbaycanda ictimai-siyasi və tarixi ədəbi mühitin öyrənilməsi nəticəsində Qulamrza

Səbri Təbrizi, Məlihə Əzizpur, Nigar Xiyavi, Türkan Nəsimi, Eldar Muğanlı, Aqşin Ağkəmərli, Hüseyn Əlimuradi, Atilla Maralanlı, Rüqəyya Kəbiri, Rəsul Yunan, Sayman Aruzun və başqa şairlərin yaradıcılığında milli-mənəvi dəyərlərin təbliğinə daha çox yer verildiyi üzə çıxır;

8. 1979-cu il və ondan sonrakı Cənubi Azərbaycan poeziyasının qabartdığı əsas problemlərdən biri, bəlkə də birincisi ana dilinin saflığının qorunması məsələsi idi.

**Tədqiqatın elmi yeniliyi.** Bu dissertasiyada Cənubi Azərbaycan ədəbiyyatı tarixində mühüm mərhələ olan 1979-2019-cu illər ilk dəfə tədqiq olunmuşdur. Azərbaycan ədəbiyyatı tarixinin tərkib hissəsi olan Cənubi Azərbaycan ədəbiyyatının müasir dövrü diqqət və səbirlə, müxtəlif ədəbi və tarixi mənbələrə, ayrı-ayrı ədəbi simaların əsərlərinə istinadən dövrün ədəbi prosesinin əsas istiqamətləri, ədəbiyyatın aparıcı mövzuları, poeziyanın əsas xüsusiyyətləri və s. milli-mənəvi dəyərlər nöqteyi-nəzərindən araşdırılır. Tədqiqat zamanı vaxtilə bilərəkdən, planlı şəkildə və ya təsadüfən unudulmuş bəzi şəxsiyyətlərin ədəbi prosesdəki rolu ilk dəfə sistemli tədqiqata cəlb olunur.

Dissertasiyada Davər Dönməz, İman Dadaş, Haşım Tərlan, Yəhya Şeyda, Həmid Nitqi, Mədinə Gülgün, Atilla Maralanlı, Səhənd, Əli Şərif Dilcuyi, Seyid Murad Musapur, Həmidə Rəiszadə, Nigar Xiyavi, Eldar Muğanlı, Bəxtiyar Əlimuradi, Ərsan Ərel, Rüqəyyə Kəbiri, Nəsrin Şirdil, Mənüçöhr Əbədi və onlarla digər sənətkarların yeri və xidmətləri müəyyən edilir. Tədqiqat işində bir sıra qələm sahiblərinin yaradıcılıqlarının spesifik xüsusiyyətləri haqqında ilk dəfə məlumat verilir. Tədqiqat zamanı bədii təsvir və ifadə vasitələrinə diqqət yetirilir, janrların müxtəlifliyi nəzərə alınır, yeri gəldikcə klassik şeir nümunələri ilə qarşılıqlı müqayisələr aparılır.

Bu elmi tədqiqat işində 1979-2019-cu illər ərzində yazıb-yaradan şairlərin əsərləri, onların yaradıcılığı tədqiq olunmuşdur. Yuxarıda göstərildiyi kimi, 1979-cu il İslam İnqilabından sonra İranda bu barədə heç bir elmi araşdırma işi aparılmamışdır. İran İslam Respublikası və Azərbaycan Respublikasında, habelə başqa ölkələrdə nəşr olunan kitab və jurnallarda səthi xarakter daşımış, ya da təkcə bir neçə şairin əsəri elmi araşdırma mövzusu olmuşdur.

Əlbəttə, təsadüfi hallarda nəşr olunan həmin əsərlər Azərbaycan və ya fars dillərində olmuşdur. Müxtəlif illərdə bəzi tədqiqat işləri meydana gəlsə də, 1979-2019-cu illər müasir Cənubi Azərbaycan poeziyasında milli-mənəvi dəyərlərin bədii inikası mövzusu ilk dəfə olaraq bu dissertasiyada geniş və fundamental tədqiqata cəlb edilmişdir.

Tədqiqat işində onlarla məşhur şairin həyat və yaradıcılığı haqqında yığcam ümumi məlumat öz əksini tapır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Cənubi Azərbaycan ədəbiyyatı bütünlüklə Azərbaycan ədəbiyyatının tərkib hissəsidir. Ona görə də Cənubi Azərbaycan ədəbiyyatını öyrənmək həm də mübarizələrlə dolu olan Azərbaycan tarixini və mədəniyyətini öyrənmək deməkdir. Tədqiqatın nəzəri və praktik əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələrindən müasir Cənubi Azərbaycan şeirinin, bütünlüklə Azərbaycan poetik fikrinin inkişaf mərhələlərinin və xüsusiyyətlərinin müəyyənləşdirilməsində, təhlilə cəlb edilib haqlarında məlumat verilən müəlliflərin yaradıcılıqlarının gələcəkdə daha ətraflı şəkildə araşdırılmasında, milli ədəbiyyat tarixlərinin, ali və orta məktəb dərsliklərinin yazılmasında, habelə ali və orta ixtisas məktəblərində xüsusi kursların tədrisində faydalanmaq olar.

Dissertasiya gələcəkdə müasir Cənubi Azərbaycan ədəbi prosesinin iştirakçısı olan hər bir şairin yaradıcılığının ayrıca araşdırılması üçün elmi baza rolunu oynaya bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmunu ilə bağlı məqalələr müxtəlif elmi toplularda Rusiyada, Ukraynada və Azərbaycanda nəşr olunmuş, ölkədə və xaricdə keçirilən yerli və beynəlxalq əhəmiyyətli konfransda məruzələr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır.

Dissertasiya işi giriş (14280 işarə), üç fəsil (birinci fəsil iki paraqraf və bir bənd – 69279 işarə, ikinci fəsil iki paraqraf – 78400 işarə, üçüncü fəsil iki paraqraf – 61700 işarə), nəticə (5160 işarə) və

istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işi 228819 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**Giriş**də mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə dərəcəsi müəyyən edilmiş, dissertasiya işinin metodoloji əsasları, elmi yeniliyi göstərilmiş, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktik əhəmiyyəti nəzərə çatdırılmışdır.

Dissertasiya işinin **“Müasir dövrdə İranda ictimai-siyasi, ədəbi mühit və onun poeziyada milli özünüdərk prosesinə təsiri”** adlı I fəsli 2 paraqrafdan ibarətdir. **“İslam inqilabından sonra İranda ictimai-siyasi və ədəbi mühit”** adlı 1-ci paraqrafda bildirilir ki, 1970-ci illərin sonunda İranda şah rejiminə qarşı narazılıqlar daha da artmağa, nümayişlər güclənməyə başladı. Bunun da əsas səbəbləri xarici dövlətlərin ölkənin daxili işlərinə qarışması, həmçinin şah rejiminin apardığı islahatlar oldu. 1977-ci il 12 dekabr tarixində Təbrizdə Təbriz Universiteti tələbələrinin şah üsuli-idarəsi əleyhinə nümayişi baş verdi. Həmin il dekabrın sonlarında isə Qum şəhərində monarxiyanın ləğv edilməsi tələbi ilə çıxışlar gücləndi. Bu hərəkat tarixə “Qum üsyanı” adı ilə daxil oldu. Lakin şahın qanlı siyasəti nəticəsində “Qum üsyanı” qəddarlıqla yatırıldı. 1978-ci il 18 fevralda isə Təbrizdə yüz min nəfərin iştirakı ilə “29 bəhmən üsyanı” qalxdı. Bu üsyan Qum hadisələri zamanı həlak olanların dəfninin 40-cı günü baş verdi. Bu üsyan şah rejiminə böyük zərbə vurdu və bir il sonra baş verəcək İran İslam İnqilabına ilk və böyük təkan oldu. Bu təkan vəziyyətin nəzarət altından çıxmasına şərait yaratdı. Düzdür, şah rejimi və onun tərəfdarları bu üsyanı da yatırdılar. Amma artıq, necə deyərlər, saman tayfasına od düşmüşdü. Beləliklə, 1978-ci ilin sentyabrında inqilabın II mərhələsi başladı. Bu inqilabda ruhanilərin rolu artdı və Fransada mühacirətdə olan inqilab lideri Ayətullah Xomeyninin xalq kütləsi içərisində təsiri çoxaldı. Tez bir zamanda çıxışlar bütün ölkədə genişləndi.

1979-cu il yanvarın 16-da Məhəmməd Rza şah Pəhləvi İrandan qaçdı və bununla da İranda şah rejimi dağıldı. Buna baxmayaraq, fars şovinizmi yenə də davam etdi, Azərbaycan dilinin təbliği, anadilli

məktəblərin fəaliyyəti, milli mətbuatın dərc olunması yenə də əvvəlki kimi qadağalarla üzləşdi.

Bu dövr xalqın ədəbiyyatına, dilinə, milli-mənəvi dəyərlərinə də təsirsiz ötüşmədi. İranda Azərbaycan dilində "Varlıq", "Dədə Qorqud", "Çənlibel", "Koroğlu" və s. jurnallar işıq üzü gördü.

İran İslam Respublikası elan ediləndən sonra 1979-cu ilin dekabrında İranın konstitusiyası qəbul edildi. Təəssüf ki, bu konstitusiyaya görə, azərbaycanlılar heç bir hüquq və azadlıqlar ala bilmədilər. Qədim tarixi, parlaq sənət inciləri olan Güney Azərbaycan ədəbiyyatı və ədəbiyyatçıları yeni bir mərhələnin başlayacağına ümid etsələr də, bütün ümidlər özünü doğrultmadı. 1978-1979-cu illər İarn inqilabı zamanı 25000-dən çox azərbaycanlı həlak olsa da, azərbaycanlıların azru və istəkləri tam həyata keçmədi.

Şah rejimi dövründə ana dilimizə qarşı qoyulan qadağa inqilabdan sonra qısa müddətlik aradan qaldırıldı. Azərbaycan dilində əsərlər nəşr olunaraq yayılmağa başladı. Ustad Şəhriyarın *"ikinci Mədinə Gülgün"* deyə yaradıcılığını təqdir etdiyi Fəriba İbrahimi Afaqın 1974-cü ildə qələmə aldığı "Ana yurdum" şeirində inqilab nəfəsi hiss olunurdu:

*... Koroğlu, Babəklər, Nəbilər yurdu,*
*Qoymarıq göz aça səndə heç qurdu.*
*Azadlıq təməlin Səttarxan qurdu,*
*Sıyrılmış qılıncam sınağında mən*[2].

Güney Azərbaycanda, o taylı, bu taylı Azərbaycan həsrətli poetik nümunələr yaranmaqda davam edirdi. Məsələn, Davər Dönməzin "Azərbaycan" şeirində vətən sevgisi, yurda bağlılıq, qardaş həsrəti mühüm yer tutur:

*Sənə vurğun olan çoxdur,*
*Sənə yardım edən yoxdur,*
*Sən tikansan, adın oxdur.*
*Əldə kaman Azərbaycan,*
*Sənə qurban, Azərbaycan*[3].

---

[2] Fəriba İbrahimi Afaq, Sabaha yol / transfoneliterasiya, ön söz və nəşrə hazır.: S.Xəyal – Bakı: Ecoprint, – 2018, s.21-22.

[3] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s.322.

İran inqilabından sonra xalqın yaddaşında yaşayan aşıq yaradıcılığında da müəyyən dirçəlmələr müşahidə olundu, xalq şeiri yeni mərhələyə qədəm qoydu. Aşıq İman Dadaş "Sazın sözü" gəraylısında xalq ədəbiyyatının doğma ana dilimizdə saz havaları üzərində yayılmasına sevinirdi:

*Telli sazı dindirəndə*
*Görün nələrdən danışır.*
*El obanın şirin dili*
*Görün nələrdən danışır,* – deyirdi[4].

1978-1979-cu illər inqilabından sonra Cənubi Azərbaycanda anadilli mətbuat oqranlarının sayının artması ana dilində poeziya nümunələrinin çoxalmasına şərait yaratdı. Özünü təsdiq meyillərinin meydana çıxması, üsyankar ruhda şeirlərin yazılması, milli birlik və bütövlük ideyaları genişləndi. Bu cəhətdən Atilla Maralanlının "Məni mənə qaytarın" şeiri maraqlıdır:

*Mən*
*Yasaq yurdunun vətəndaşıyam.*
*Yasaqlar içində doğulmuşam*
*Və "Azadlıq" sözüylə ilk dəfə*
*Kitablarda tanış olmuşam.*
*Seçməzdim özüm belə vətəndaşlığı,*
*Seçdilər mənə bu vətənsizdaşlığı*[5].

Şeirdə lirik qəhrəman hər şeyin ona yasaq olduğunu, qadağa edildiyini aləmə car çəkir, bütün dünyaya eşitdirməyə çalışır.

1980-ci illərin əvvəllərində şeirə gələn aparıcı gəncliyin nümayəndələri özündən əvvəlki ədəbiyyatı, demək olar ki, təkrarlamaq istəmədilər. Güney Azərbaycan poeziyasına Quzey Azərbaycan, həmçinin Türkiyə ədəbiyyatının da təsiri gücləndi. Poeziyada sərbəst şeir nümunələrinə daha geniş yer verildi. Həmid Nitqi Azərbaycan ədəbiyyatında sərbəst şeirin ustadı sayılan Rəsul Rzanın vəfatı münasibətilə yazdığı "Ağı" şairində gec tapdığı müəllimini tez itirdiyinə heyifsilənirdi:

---

[4] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 342.

[5] Güney Azərbaycan antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015, s. 103.

*Rəsul Rza,*
*Çox gec tapdım mən səni*
*Və də*
*Çox tez itirdim.*

*... Sözlərindəki sehrə bütün qəlbimi verdim.*
*Bu çeşmə*
*Sonsuzacan axacaqdır,*
*Deyirdim...*
*Elə bil qara tale bunu mənə çox gördü,*
*Addım basdığın bağça birdən tar-mar oldu...*[6] [52, s.54]

İslam inqilabından sonra Güney Azərbaycan şairləri mövzu baxımından da çətinlik çəkmirdilər. İlk əvvəllər çağırış, üsyan ədəbiyyatı, alovlu nitqlərlə dolu olan poetik parçalar özünü göstərsə də, sonradan daha çox romantik mövzulu sevgi şeirləri yazılmağa başladı.

**"Poeziyada milli özünüdərk prosesinin təzahürü və onu şərtləndirən amillər"** adlı 2-ci paraqrafda göstərilir ki, 1979-cu il İran inqilabından sonra poeziya xalqın milli-mənəvi və ictimai-siyasi həyatı ilə öncəki dövrlərə nisbətən daha sıx əlaqədə oldu. Həmin dövrdə ədəbiyyatşünaslıqda yetişib formalaşan yeni ədəbi nəslin nümayəndələrində türkçülük və azərbaycançılıq meyilləri ön plana keçdi. Bu proseslər Cənubi Azərbaycan ədəbiyyatının, xüsusən də poeziyasının inkişafında yeni bir dövrün başlanğıcı idi. Bu dövr ədəbi mühitinin qəhrəmanları baş verən tarixi hadisələri, sosial mühitin təsirini öz həyatlarında hiss edən, yaşayan bir qrup idi. Onlar M.H.Şəhriyarın, B.Q.Səhəndin davamçıları, onların aydınlatmağa çalışdıqları yolla getməyi qarşılarına məqsəd qoymuş azadlıq aşiqləri idi.

İnqilab ərəfəsində yaranan realist poeziyanın nümayəndəsi Sönməz oxucunu Vətənə, yurda bağlılığa, kamilliyə, əsl həqiqətləri yaxından dərk etməyə çağırırdı. Bu müqəddəs milli dəyərlər, bu haray əsl vətənpərvərin ürək çırpıntıları idi. O, hakim rejimin qəzəbindən qorxmurdu:

---
[6] Həmid Nitqi (Aytan). Seçilmiş əsərləri / tərt. ed. və öz söz. S.Nəbioğlu – Bakı: AVRASİYA PRESS, – 2005, s. 54

*Azadlıq yolunun izi sənlədir,*
*Ellərin intizar gözü sənlədir,*
*Şairin nəğməsi, sözü sənlədir*
*O qədər suallı, nidalısan sən.*[7]

1979-cu il İran İnqilabı ərəfəsində Cənubi Azərbaycan yazarlarının əsərlərində artıq milli özünüdərk prosesinin təzahürünün şahidi olmağa başlayırıq. Bu proses Şimali Azərbaycanda olduğu kimi cənublu şairlərin də yaradıcılığında 60-70-ci illərə təsadüf edirdi. Bu yeni bir mərhələ idi və əsasən, poeziyada özünü büruzə verdi. Şəhriyarın açdığı cığırda yeni izlər görünməyə başladı. Baş verən proseslər Cənubi Azərbaycan ədəbiyyatında əsaslı dönüşün başlanğıcı idi. Şairlərin istər fars, istərsə də Azərbaycan dilində yazdığı şeirlərdə ana dili, xalq, vətən mövzuları ön plana çəkilir, milli özünüdərk prosesi başlıca yer tuturdu. Bu baxımdan Sönməzin "Anam dili" şeirindən aşağıdakı bənd fikrimizi tamamlayır:

*Könlüm quşu oxur vətən gülüynən,*
*Gül necə ki, gülər öz bülbülüynən,*
*Sözlərimi yazdım xalqın diliynən,*
*Odur adım ürəklərdən silinməz,*
*Yazılmasa, dilin qədri bilinməz.*[8]

Lirik qəhrəman qədim tarixə malik ana dilinə hörmətsizliyə üsyan edir, haqsızlığa, ədalətsizliyə öz etirazını bildirirdi:

*O gündən ki, dilim "ləhcə" sayıldı,*
*Yatmış təbim bir diksinib ayıldı,*
*Bu ayıqlıq ölkəmizə yayıldı,*
*Damarlarda qeyrət qanı qoymadı,*
*Paslı qələm əlimizdə oynadı.*[9]

Bu misralar dilin yasaqlanmasına qarşı bir direniş, etiraz və üsyan idi.

1980-ci illər ədəbi prosesi özündən əvvəlki ədəbiyyatdan bəhrələnirdi, yeni yaradıcılıq metodları, müasir sənət meydana

---

[7] Sönməz. Şeirlər [üç cilddə]: // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu. C-1125. – c.1, v 71 b.
[8] Sönməz. Şeirlər [üç cilddə]: // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu. C-1125. – c.2, s. 59.
[9] Sönməz. Şeirlər [üç cilddə]: // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əlyazma fondu. C-1125. – c.2, s. 59.

çıxırdı. Orta nəsil ədəbiyyatçıları ilə bərabər əlinə ilk dəfə qələm alan yeni nəfəs duyulurdu.

Cənubi Azərbaycan ədəbi prosesinin 1990-cı illər ədəbiyyatına diqqət yetirəndə yaradıcılıq nümunələrinin ədəbi axtarışların nəticəsi olduğunu görürük. Bu mərhələdə Güney poeziyasında tarixi faktların əks edildiyinin şahidi oluruq. Fikir təzəliyi qabarıq şəkildə önə çıxırdı. Güneyli yazarlar şeirin qarşısına yeni missiyalar, daha müasir tələblər qoyur, yeniliyə cəhd edirdilər.

Bu əsərləri yaradan sənətkarlar ictimai-siyasi həyatda baş verən olaylara da münasibət bildirir, dövrün tələblərinə uyğun olaraq yeni söz deməyə çalışırlar. Məsələn, İbrahim Zahid Xəzayerinin misralarına diqqət yetirək:

*O yanda qardaşım qanına batır,*
*Bu yandakı başın basdırır yatır.*
*Nədir ki, "dost məni" düşmənə satır,*
*O dostların gərək varlığın danım,*
*Kimə arxalansın, Azərbaycanım?*[10]

1990-cı illərdə Şimali Azərbaycanda gedən mürəkkəb ictimai-siyasi proseslər Cənubi Azərbaycan poeziyasına, nəsrinə, bir sözlə, ədəbiyyatına təsirsiz ötüşməyə bilməzdi. Şimali Azərbaycanda olduğu kimi Cənubi Azərbaycanda da türkçülük meyilləri güclənməyə başladı. Şimallı və cənublu şairlər bir-birləri ilə əlaqə yaratmağa, ünsiyyət qurmağa çalışdılar.

Dünya ədəbi prosesindən uzaqda qalmamaq, yeni modern ədəbiyyat yaratmaq üçün səylərini artıran, yeni üslub və metod axtarışlarına çıxan, standart formalardan kənara çıxmağa çalışan Cənubi Azərbaycanda yaşayıb-yaradan ədəbiyyat adamları 1990-cı illərdə ədəbi növ və janrlarla digər dövrlərə nisbətən zəngin bir ədəbiyyat yaratdı. Onu da qeyd etməliyik ki, bu dövrdə ədəbiyyatda milli-azadlıq düşüncələri ilə yoğrulmuş fikir öndə idi.

Vətən idealı, qürbət harayı, lirik qəhrəmanın ah-nalə etməsi, fəryadı Həmidə Rəiszadənin bir çox şeirlərində özünü göstərirdi:

*Ucalıqlarda izin var, – deyərək,*
*Çıxaram dağlara yar, yar, – deyərək,*

---

[10] Əhməd, V. Cənubi Azərbaycan poeziyası (1950-2010) / V.Əhməd. – Bakı: MBM, – 2014, s. 341.

*Səhərəm, qürbət elin dar, – deyərək,*
*Vətən ünvanlı kəfən saxla mənə*[11]

İnqilab ərəfəsində o tayla bu taylıların bir-birinə qovuşacağına inam hissi var idisə də, inqilabdan sonra ədəbiyyatda bu xəyalların puç olması poeziya nümunələrinə hopmuşdu.

Mədinə Gülgün də ayrılığın gətirdiyi fəlakətlərə etiraz edirdi:

*Telefon xətlərində bir səs düşdü dünyaya,*
*Telefon xətlərində birləşdi ana, bala.*
*Bir ananın səsindən sanki üşüdü dünya,*
*Bir balanın səsindən göy ağladı az qala.*[12]

İnqilabdan sonra yaranan ədəbi əsərlərin müəlliflərinin bir gözü gülsə də, bir gözünün ağladığını görürük. Süleyman Salisin "Gülə-gülə" şeirində lirik qəhrəman bir tərəfdən nikbin əhvali-ruhiyyəyə sahibdirsə, digər tərəfdən ellərin dərdinə şərik olur:

*İndi fələk bizə baxır qıyğacı,*
*Ellərin dərdlidi, dərman möhtacı.*
*Bu gün o sinəsi dağlanan bacı*
*Başına salacaq şal gülə-gülə,* – söyləyir[13].

2-ci paraqrafın **"Heydər Əliyev və Cənubi Azərbaycanda ədəbi proses"** adlı bəndində bildirilir ki, ədəbiyyatımızın, mili mədəniyyət və incəsənətin qorunması, gələcək nəsillərə çatdırılması məsələsində xüsusi xidmətləri olmuş Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə Cənubi Azərbaycan məsələsini də hər an diqqət mərkəzində saxlamışdır. Onun milli siyasətinin əsas istiqamətlərindən biri də Cənubi Azərbaycan ədəbiyyatı ilə bağlı idi. Heydər Əliyevin Cənubi Azərbaycan ədəbiyyatına, onun Şimalda mühacir həyatı yaşayan nümayəndələrinə göstərdiyi diqqət və qayğı danılmaz faktdır. Təsadüfi deyil ki, 1976-cı ilin mayında məhz onun diqqət və qayğısı nəticəsində Mirzə İbrahimovun təşəbbüsü ilə Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan

---

[11] Güney Azərbaycan kadınlarının sesi: Hamide Raiszade Seher / URL: http://www.dibace.net/dunyadan/guney-azerbaycan-kadinlarinin-sembol-sesi-hamide-reiszade-seher/

[12] Gülgün, M. Seçilmiş əsərləri / M.Gülgün. – Bakı: Şərq-Qərb, – 2004, s. 54.

[13] Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. Poeziya / – Bakı: Çaşıoğlu, – 2019, s. 587-588.

ədəbiyyatını tədqiq edən şöbə yaradıldı. 1981-ci ildə Xalq yazıçısı Mirzə İbrahimovun rəhbərliyi ilə bu şöbənin əməkdaşları üç cilddən ibarət "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"nı tərtib etdilər.

Heydər Əliyevin hakimiyyəti illərinə qədər Cənubi Azərbaycan planlı və məqsədli şəkildə "İran Azərbaycanı" adlandırılırdı. Bu terminin dəyişdirilməsi çətin, mürəkkəb bir tarixi hadisədə uğur qazanmaq demək idi. Məhz Heydər Əliyev bu işin öhdəsindən gələ bilmişdi.

Heydər Əliyevin Cənubi Azərbaycana, burada yaşayan şair və yazıçılara sevgisi, qayğısı birtərəfli olmamışdır. Cənubi Azərbaycan şairləri də Heydər Əliyevə olan sarsılmaz inamını, sevgisini ifadə edirdilər. Heydər Əliyev haqqında ilk şeiri məktub şəklində Bulud Qaraçorlu Səhənd yazmışdı. "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeirdən bir bənd:

*...Bu gün millətinin dayağı Sənsən,*
*Elimin çörəyi halalın olsun!*
*Dünyalar durduqca əsən dur, əsən!*
*Sənə göz dikmişdir bütün Vətənin!*[14]

Heydər Əliyevin qarşıya qoyduğu əsas məsələlərdən biri də Cənublu şairlərin təşkilatlanması idi. *"Onun göstərişinə əsasən, 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqında Cənub ədəbiyyatı üzrə katib vəzifəsi təsis edildi"*[15]

Heydər Əliyevin səyləri və təşəbbüsü nəticəsində 1981-ci ildə Balaş Azəroğluna "Xalq şairi" fəxri adı verilmiş və sənətkarın 60 illik yubileyi keçirilmiş, onun göstərişinə əsasən, 1987-ci ildə Mədinə Gülgün "Azərbaycan SSR əməkdar incəsənət xadimi" adına layiq görülmüşdür.

Heydər Əliyev Cənubi Azərbaycan ədəbiyyatı və mədəniyyəti ilə yanaşı, eyni zamanda Cənubda ana dili – Azərbaycan dili məsələsini də nəzarətdə saxlayırdı. Ulu öndərin Məhəmmədhüseyn Şəhriyarın 90 illik yubileyinin keçirilməsi haqqında 29 oktyabr 1997-ci ildə imzaladığı sərəncam bunun əyani sübutudur. Heydər Əliyevin

---

[14] Qaraçorlu, B. Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə // Ədəbiyyat qəzeti. – 1974, 28 iyul. № 4 (5394) – s. 7.

[15] Cənubi Azərbaycan antologiyası: [dörd cilddə] / tərt.ed. Z.Əkbərov, T.Əhmədov, B.Abdullayev [və b.] – Bakı: Elm, – c.3. – 1988. – 552 s.

yeritdiyi siyasət nəticəsində Cənubda yaşayan soydaşlarımız da özlərini azərbaycanlı sayır, bütün qadağa və işgəncələrə baxmayaraq, ana dilində danışır, Arazın hər iki sahilini doğma vətəni hesab edir və bir gün birləşmək ümidi ilə yaşayırdılar.

Dissertasiya işinin **"Cənubi Azərbaycanda milli-mənəvi dəyərlərin mühafizəsi problemləri və bu sahədə poeziyanın rolu"** adlı II fəsli 2 paraqrafdan ibarətdir.

**"Milli-mənəvi dəyərlərin poeziyada inikası"** adlı 1-ci paraqrafda bildirilir ki, Müasir Güney ədəbiyyatında xalq adət-ənənələri, milli-mənəvi dəyərlər məsələsi məhz Şəhriyar tərəfindən böyük cəsarət və sənətkarlıq bacarığı ilə poeziyaya gətirmişdir.

1979-2019-cu illərdə meydana çıxan şairlərin yaradıcılığında milli-mənəvi dəyərlərin inikası mövzusu və məsələsi yeni formada və fərqli məzmunda yarandı. Bakıda mühacir həyatı yaşayan Əli Tudə 1987-ci ildə Şəhriyar təsiri ilə nənəsini yada salır, ağbirçəklərin hafizəsində qoyduğu folklor nümunələri ilə gənc nəsildə Vətən məhəbbəti hissi formalaşdırdığını bədii şəkildə belə təqdim edir:

*...Bilməzdim, nə deməkdir,*
*Ana yurd, doğma Vətən...*
*Gecələr yer-göy susar,*
*Aysa mürgü döyərdi.*
*Nənəm, mehriban nənəm*
*Mənə nağıl deyərdi.*[16]

Şəhriyarın, Əli Tudənin bu poetik ənənəsi müasir Cənub şeirində də uğurla davam etdirilir. Şair və dramaturq Ülkər Ucqarın (Munirə Əkbərpüran) anasına ithaf etdiyi şeirdə xalqımıza məxsus adət-ənənələrin təsviri də diqqəti çəkir:

*Anam yanına salıb toylara aparırdı,*
*Öyünə-öyünə qapılardan keçirdik, iki möhtəşəm qadın!*[17]

Vətənin, yurdun tərənnümünə həsr olunan şeirlər Cənublu şairlərin yaradıcılığında da mühüm yer tutur. Məsələn, Beytullah Əfsər "Ana yurdum" şeirində yazır:

---

[16] Tudə, Ə. Təbriz yolu. Əsərləri: [20 cilddə] / Ə.Tudə. – Bakı: Azərbaycan, – c.10. – 2017, s. 83.

[17] Ucqar, Ü. Şeirlər / URL: https://mesiha.blogspot.com/2009/04/ulkr-ucqar-seirlr.html?m=1

*Ana yurdum anaların anası,*
*Məhəbbətin hürriyyətin qalası.*
*Behiştinsə Yer üzündə aynası,*
*Ana yurdum qucağına gəlirəm...*[18]

Xalqımızın qədim adət-ənənələrindən biri olan ağsaqqala, ataya hörmət məsələsi Seyid Murad Musapurun "Ata" şeirində belə əksini tapır:

*Önündə baş əyib öpməmiş əlin,*
*Əllərim əlindən üzüldü, ata.*
*Dalınca boylandım dalınca baxdım,*
*Göz yaşım leysan tək süzüldü, ata*[19].

Mihən Kəriminin "Misilsiz sevgi" adlı şeirlər kitabında Cənubi Azərbaycanda da qardaş Türkiyədə olduğu kimi Atalar gününün xüsusi qeyd olunduğunu öyrənirik. Atasını erkən itirən şair həmin bayramın qeyd olunduğu tarixdə bu günün acısını təkararən yaşadığını "Ata günü" şeirində belə ifadə edir:

Ata günü bir məzarla görüşdük,
Xatirəli bir şəkillə öpüşdük.
Qəm-kədəri sevincsiz bölüşdük,
Əlimizdə ata əlin görmədik.[20].

Milli yaddaşına, adət-ənənələrinə, şifahi xalq ədəbiyyatına bağlılıq əksər cənublu şairlərin əsərlərində hər zaman səciyyəvi cəhət olmuşdur. 1979-2019-cu illər ədəbi mənzərəsinə fikir verdikdə bunun bir daha şahidi oluruq. Bu da bir həqiqətdir ki, öz kökünə, tarixi yaddaşına bağlı olan, tarixi kökündən qidalanan əsər həmişə öz aktuallığını qoruyub saxlayır.

Anasına müraciətlə: *"Qoyma oxşamaya dönə diləyim",* – deyən Mihən Kərimi neçə yaşında oluruqsa, olaq anadan ayrılmağın hər kəs üçün şəxsi faciə olduğunu "Ayrılma ana" şeirində bütün incə detallarına qədər ifadə edə bilir:

*... Sən məni yaşadan isti nəfəssən,*

---

[18] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 424.

[19] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 437.

[20] Mihən Kərimi, Misilsiz sevgi / transliterasiya və ön söz: S.Xəyal – Bakı: Ekoprint, – 2016, s. 36.

*Könlümü oxşayan bir həzin səssən.*
*Qoyma aramıza çöksün duman, çən,*
*Ayrılma, amandır, ayrılma, ana.*[21]

Cənublu şairələrimizdən Xədicə Məhəmmədi də "Ana" şeirində valideynlərin övladlarına öyüd-nəsihət etməsi, ailə tərbiyəsində ananın mühüm rolu məsələsinə toxunur:

*Ey mehriban anam, sən sağlığında*
*Dedin ki, gül balam, saxla yadında:*
*– Adın çağrılanda "bəli" söylə sən,*
*Mənimçün işlə ki, özümçün öyrən.*[22]

Nəsrin Şirindilin "Muğamat" şeirini oxuyarkən insana elə gəlir ki, sənətkar oxucunu milli oyanışa, keçmişi yaşamağa, hiss etməyə, öyrənməyə çağırır. Vətənin sahibsiz olduğuna, yiyəsiz qaldığına etiraz edir:

*Musiqi səsiylə titrəyir ürək,*
*Duyğular coşlanır, açılır çiçək.*
*Səs gedir göylərə, əl çalır mələk,*
*Çıxarır zindandan ruhu gözəl səs,*
*Ruhların dilidir canlara nəfəs.*[23]

1979-2019-cu illərdə Cənubi Azərbaycan poeziyasında xalq şeirinə müraciət, bu şeirin janrlarından istifadə zəif olmamışdır. Bu dövrdə yaranan qoşma, gəraylı və təcnislərdə aşıq ədəbiyyatından gələn güclü humanizm, əlvan deyim tərzi, yorucu olmayan təbiət təsvirləri, şirin xalq dili ifadələri bu poeziyanın əsas məziyyətidir. Mənüçöhr Əbədinin (Küskün) "Bənövşəni" rədifli qoşması buna nümunə ola bilər:

*Təpədən dırnağa sirdi fəsillər,*
*Tanrım yaza verib pay bənövşəni.*
*Ömrü taleyindən gödək olubdu,*
*Yüz gün yaşayaydı, ay bənövşəni.*[24]

---

[21] Mihən Kərimi, Misilsiz sevgi / transliterasiya və ön söz: S.Xəyal – Bakı: Ekoprint, – 2016, s.44

[22] Xədicə Məhəmmədi, Sözdən yaranmış aləm / nəşrə hazırlayan: S.Xəyal – Bakı: Ekoprint, – 2016, s. 18.

[23] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 529.

**“Anadilli poeziya milli-mənəvi dəyərlərin mühafizə vasitəsi kimi”** adlı 2-ci paraqrafda qeyd edilir ki, Ötən əsrin 80-ci illərində güneyli yazarlar anadilli poeziyada milli-mənəvi dəyərlərin mühafizəçisi mövqeyində çıxış edirdi. Çünki Güney Azərbaycan şeirinin əsas nümunələri ana dilimizdə yaranırdı və bu poeziya öz gücünü xalq həyatından, gündəlik yaşayışdan alırdı.

Fevral inqilabından sonra milli mətbuat orqanları qapılarını ana dilində yazan şair və yazıçıların üzünə açdı. Bu da özlüyündə anadilli əsərlərin kitablardan çox mətbuat orqanlarında, qəzet və jurnallarda dərcinə səbəb oldu. Doğrudur, hələ o vaxt bu cür qəzet və jurnalların ömrünün nə qədər olacağı məlum deyildi. Çoxu tez bir zamanda bağlansa da, onların Güney Azərbaycan ədəbiyyatının gələcək fəaliyyətinə təsiri danılmazdır.

İnqilab dövründə xalqın öndə gedən nümayəndələrindən biri Kərim Məşrutəçi Sönməz inqilabdan sonra “Varlıq” jurnalı ilə sıx əməkdaşlıq edənlərdən biri idi. Vətəndə vətənsiz yaşadığı üçün dərd çəkən şair “Mənsizləmişəm” şeirində fikirlərini belə ifadə edirdi:

*Əskidən şanlı-şərəfli el idim,*
*Zalıma qarşı amansız sel idim.*
*Zirvəsi çənli-dumansız bel idim*
*İndi, müddətdi ki, sənsizləmişəm.*[25]

Səttarın, Babəkin nəslindən olduğunu söyləyən sənətkar keçmişini unutmamağa çağırırdı.

Cənubi Azərbaycan ədəbiyyatının bir qolunu mühacirətdə və bu tayda yazıb-yaradan sənətkarlar inkişaf etdirirdilər. Almaniyada yaşayan Əziz Səlaminin “Qərib külək” adlı şeirinə baxaq:

*Bu külək hardan gəlir, görəsən?*
*Qərib-qərib dəyir saçlarıma*
*Ürkək-ürkək toxunur üzümə,*
*Oynayır kövrək barmaqları havada.*[26]

---

[24] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 595.

[25] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s.322

[26] Məmmədli, P. Cənubi Azərbaycanda ədəbi-bədii prosesin inkişaf mərhələləri / P.Məmmədli. – Bakı, – 2021, s. 233.

Cənubi Azərbaycan ədəbi prosesinin davamçıları qəzəl janrına qaydış fonunda da az iş görmədilər. Hüseyn Kərimi klaasik şeir üslubundan məharətlə istifadə edərək dilimizin sərhədsiz imkanlarını nümayiş etdirirdi:

*Cahanda cahanı huşyar edən qələmdir, qələm,*
*Yatan camaatı bidar edən qələmdir, qələm.*[27]

Rübab Səttarinin "Ağlar" rədifli qəzəli də bu janrın gözəl nümunələrindəndir:

*Hansı sözlərdən söz açdın, dağ yanıb daş ağladı,*
*Hansı gözlərdən danışdın, göz də yox, qaş ağladı.*[28]

Ana dilini *"anama oxşarlığımdır"* deyə vəsf edən Kiyan Xiyav bu dildə yazılan şeiri "*Füzuli kimi ah çəkən, Sabir kimi söz atan"* sonsuz nəsnələr adlandırır.

2000-ci illər Cənubi Azərbaycan poeziyasından danışarkən Heydər Bayat, Fərhad Kədxudayi, Sayman Aruz, Lalə Cavanşir, Ramin Cahangirzadə, Leyla Kəhali, Məlihə Ərizpur, Zaman Paşazadə, Mustafa Şeyxpor və başqa şairlər sözlərdən məharətlə istifadə edib, bəhrələnmişlər. Ramin Cahangirzadənin "İntihar" şeiri bu baxımdan maraqlıdır:

*Sabah,*
*Yağmurlar şəhərində*
*Günəş kəndiri ilə*
*Özünü asacaq buludlardan*
*Bir adam...*
*Şəhərə hay düşəcək...!*
*Kənd pıçıldaşacaq...!*[29]

Dissertasiya işinin **"Milli mənəvi dəyərlərin poeziyada forma axtarışlarına təsiri"** adlı III fəsli 2 paraqrafdan ibarətdir.

**"Milli-mənəvi dəyərlər və poeziyada vəzn problemi"** adlı 1-ci paraqrafda bildirilir ki, ədəbiyyatımızın Şimal qolundan fərqli olaraq, Cənublu şairlər şeirin klassik kanonlarına daha çox əməl edir və xalq şeir üslubuna daha çox meyil göstərirlər.

---

[27] Kərimi, H. Qələmdir Qələm // Mahnı jurnalı, – Urmiya, – 2014, – s. 34.
[28] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s. 598.
[29] Güney Azərbaycan antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015, s.250.

İran İslam İnqilabından sonra Cənubi Azərbaycanda poezisya üç istiqamətdə davam və inkişaf edirdi: lirika, epik şeir və realist satira. Ədəbiyyatda M.H.Şəhriyarın təsiri daha dərin idi. Şair Əbülfəzl Mühibbi Fazil "Utad Şəhriyar məktəbi" şeirində dahi sənətkarın özündən sonra Cənubda yaranan anadilli poeziyamızın inkişafına göstərdiyi nüfuzedici təsiri belə açıqlayır:

*Heydər babanı türk dilinə vasitə saldı,*
*Bütün aləmləri aldı.*
*Özü getdi,*
*Sözü qaldı.*[30]

Şair Asim Ərdəbili də böyük ustadın ədəbiyyatımız üzərindəki təsir gücünü görür, onun irsinin ardıcılları tərəfindən davam etdiriləcəyini bildirirdi.

1979-2019-cu illər Cənubi Azərbaycan şeiri vəzn problemi də yaşamışdır. Bunun əsas səbəblərindən biri inqilabdan əvvəl və sonrakı dünyagörüşü, ədəbi fikir və ifadə tərzi arasında olan fərqli cəhətlər idi.

XX əsrin 70-80-ci illərində Güneydə Azərbaycan dilinə qoyulan qadağalar, Azərbaycan dilində yazılan əsərlərin çap olunmaması, bu əsərlərin nəşr məhdudiyyəti böyük bir uçurumun və boşluğun yaranmasına gətirib çıxardı. Nəticədə XX əsrin sonlarında Cənubi Azərbaycan ədəbiyyatında qəzəl janrının yeni nümunələri meydana gəlməyə başladı. Məsələn, Əbülfəz Əziminin bir qəzəlinə baxaq:

*Yarım məni qürbətdə avarə qoyub getdi,*
*Bir ahilə sinəmdə min yarə qoyub getdi.*[31]

Epik şeirin ümumi mənzərəsini gözümüz önünə gətirdikdə Şəhriyar ədəbi məktəbinin davamçılarından Əlirza Purbozorg Vafinin, Bəxtiyar Muğanoğlunun, Abbas Barizin, Mahmud Sadıqpur Şaminin, Abbas Kəriminin və s. sənətkarların irəlidə getdiyinin şahidi oluruq. Əlirza Purbozorg Vafinin "Eynalıya salam", Abbas Barizin "Eldayağına salam", Mahmud Sadıqpur Şaminin "Kənd

---

[30] Əbülfəzl Mühibbi Fazil. Mən günəşi gətirmişəm / transfoneliterasiya, ön söz və nəşrə hazır.: S.Xəyal – Bakı: Ecoprint, – 2018, s. 76.

[31] Cənubi Azərbaycan şeiri antologiyası / tərt. ed. V.Əhməd, D.Rzayeva – Bakı: Ecoprint, – 2018, s.598, s.485

cevizi" poemalarında Şəhriyarın "Heydərbabaya salam" poemasının təsiri aydın duyulmaqdadır.

1990-cı illərin epik şeirində müharibə, qaçqınlıq, işğal olunmuş torpaqların ağrı-acısı, ölüm düşüncələri və s. ilə bağlı müxtəlif mövzulara, əsərlərə rast gəlinir. Eyni mənzərə 2000-ci illər ədəbiyyatında da yaşanır. Bu əsərlər içərisində Əli Daşqının "Əsir torpaq" (Qarabağ poeması) poeması xüsusilə diqqətəlayiqdir. Əsərin birinci bölməsi Şuşa haqqındadır:

*Gözəl Şuşa!*
*Dərələri tam sehirli,*
*Zirvələri qoşa-qoşa*
*Kim qoyar ki, mən də qıyam*
*Yem olasan qurda-quşa?!..*[32]

Epik şeirə müraciətin bir sıra mühüm qanunauyğunluqları, bu ədəbi növdə yazılan janrların özünəməxsus vəzifələri və ölçüləri vardır. Əli Daşqının "Əsir torpaq" poemasında bu tələblər gözlənilmiş, ortaya Qarabağ həsrətli, Vətən haraylı bir poema çıxmışdır:

*Cabbarı yada salanda*
*Nətəvandan utanıram!*
*Üzeyirə üz tuturam,*
*Xana, Seyidə baxıram.*
*Bülbül gəlir xatirimə*
*Düşürəm ölüm-dirimə.*[33]

**"Poeziyada poetika məsələləri"** adlı 2-ci paraqrafda göstərilir ki, çağdaş Cənubi Azərbaycan ədəbiyyatında müşahidə olunan poetik özəlliklər və yeniliklərdən danışarkən ötən əsrin 80-ci illərindən Güney poeziyasında öz sözünü demiş yazarlardan söhbətə başlamalıyıq. Bu illərdə yaranan poeziya başlıca olaraq əruz və heca vəzninin müxtəlif formalarında öz əksini tapmışdır. Ölkədəki vəziyyət Cənubi Azərbaycan şeirinə öz mövzularını gətirmişdir. Bu

---

[32] Sözdən asılan arzular – XX əsrdə Güney Azərbaycan poemalarından ibarət antologiya / nəşrə hazır. E.Fuad – Bakı: Elm və təhsil, – 2016, s. 527.

[33] Sözdən asılan arzular – XX əsrdə Güney Azərbaycan poemalarından ibarət antologiya / nəşrə hazır. E.Fuad – Bakı: Elm və təhsil, – 2016, s. 527.

dövrdə yaranan şeirlər gül-bülbül, yar vəfasızlığı və sevgi şeirləri deyil, daha çox xalqın narazılığını, qəzəb və nifrətini əks etdirirdi.

Əvvəlki dövrlərdən fərqli olaraq, şairlər şeirlərində bədii təsvir və ifadə vasitələrindən, məcazlardan məharətlə istifadə etmiş və bu da onların yaratdıqları əsərləri daha oxunaqlı etmişdir. Həmid Nitqinin "Köçmüş karvanlar izində" şeirinin "Təbrizim" hissəsi buna misal ola bilər:

*...Budur,*
*Nazlı-nazlı durur*
*Önümdə*
*Canlı, cavan, təzə, şən,*
*Qızıl dağlar ətəyinə söykənən*
*Gəlin kimi al ipəkli Təbrizim,*
*Bal pətəkli*
*Gül-çiçəkli Təbrizim...*[34]

Bu misralarda Təbriz nazlı gözələ bənzədilib. Bundan başqa *"qızıl dağlar"* birləşməsində gözəl epitet yaradılmışdır. Dağların ətəyinə söykənən Təbriz ifadəsində yaradılan metafor ürəyə xoş gəlir.

İran İslam İnqilabından sonra folklora, milli-poetik ənənələrə qayıdış qəzəl, qoşma, gəraylı, bayatı, rübai, məsnəvi və s. kimi janrların şairlərin yaradıcılığında müraciət etdikləri əsas janrlara çevrilməsinə yol açdı.

Çağdaş Cənubi Azərbaycan poeziyasına xas olan xüsusiyyətlərdən biri də şairlərin yaradıcılığında satirik meyillərin güclü olmasıdır. Çağdaş Güney poeziyasında satirik şeirin gözəl nümunələrini yaratmış qələm sahibləri arasında Məcid Səbbağe (Yalqız), Həmid Arəşi Azad, Məhəmməd Riza Şövkəti, Əli Ətaiyyə, Məhəmməd Hüseyn Təhmasibpur və b. şairlərin adını çəkə bilərik. Bu sənətkarlar həyatda baş verən mənfiliklərə, özbaşınalıqlara, xalqa zülm edən rejimə və s. qarşı kəskin mövqedə dayanmış, onları satirik dillə tənbeh etmişlər. Fars rejiminin törətdiyi bəlaların ifşası, İranda Azərbaycan dilinə qoyulan qadağalara etiraz, dil məsələsi və s. Yalqızın satiralarının hədəflərindəndir:

---

[34] Həmid Nitqi (Aytan). Seçilmiş əsərləri / tərt. ed. və öz söz. S.Nəbioğlu – Bakı: AVRASİYA PRESS, – 2005, s. 113.

*Ayılın, ey Vətən övladı, gəlin bir üz-üzə,*
*Seriyallarda bu dil aşkara lağ olmadadır.*
*İstəyirlər ki, oyatmaq adıma yuxladalar,*
*İranın azəri övladı oyaq olmadadır.*
*Ölməyib Yalqız hələ, türk dilinə xor baxalar,*
*Xainin başına hər ləhzə çomaq olmadadır.*[35]

1980-ci ilərdə millətsevərlik, türkçülük, milli mənlik hissləri ilə coşub-daşan ədəbi nəsil 1990-cı illərdə həm də Avropa modern şeirini mənimsədi.

Məsələn, Aydın Arazın şeirləri sərbəst şeir formasında yazılsa da, onun yeni toplusunda klassik formada olan bəzi şeirlərə də rast gəlinir. Onu "Yasaq sözcüyüm" və "Adamlar qayıdırlar, yoxsa gedirlər" kimi əsərlərində zəmanədən şikayət, dil qayğısı, məhrumiyyətlərə məruz qalan soydaşlarının kədəri əks olunmuşdur:

*Bir otobusdur, şair,*
*Sözcük daşıyır...*
*Hər sözcük bir müsafir*
*və şeirlər duraqlardır.*
*Hər şeir bir sözcüyün sonu...*
*Hey... mənim yasaq sözcüyüm, sevdiyim,*
*Qal! Duraqsız müsafirim,*
*Səni ömür boyu daşıyacağam*[36].

Bu şeirdə də *"avtobus"* simvolundan istifadə olunur. Öz yolu ilə gedən avtobus yasaq edilən dil ilə müqayisə olunur. Şair çapı qadağa olunan anadilli şeirləri dayanacağı olmayan misafirə bənzədir. İctimaiyyətə çatdırılması mümkün olmayan poetik nümunənin isə yalnız müəllifinin ömrü qədər yaşaya biləcəyinə təəssüflənir.

2000-ci illərdə Cənubi Azərbaycan ədəbiyyatında meydana çıxan ədəbi nəsilin nümayəndələrindən Səttar Dadgah, Məhəmməd Novi (Baraz), Səkinə Purhəsən, Dalğa Xatınoğlu, Mustafa Şeyxpor, Solmaz Məhəmmədrzayi, İsa Zeyni, Aydın Araz, Mehsa Mehdili,

---

[35] Əlincəq, Ə.R. Müasir Cənubi (İran) Azərbaycan şeiri (1960-2005) /filologiya üzrə fəlsəfə doktoru dis. / – Bak, 2013, s. 84.
[36] Tanıyaq və tanıdaq: Aydın Araz / URL: https://525.az/news/157184-taniyaq-ve-tanidaq-aydin-araz

Duman Ərdəm, Ramin Cabbarlı, Xosrov Barışan, Qədir Cəfəri və b. haqsızlıqlara daha açıq etiraz etməyi bacarmışdır. Bu şairlər içərisində Mehsa Mehdilinin yaradıcılığı, xüsusilə diqqəti cəlb edir.

Məsələn, Mehsa Mehdili "Təbriz" şeirində fars rejiminin başımıza gətirdiyi faciələrə qarşı özünəməxsus şəkildə etiraz edir:

*Özümü itirdiyim yerdəyəm,*
*Santım-santım tapılmağım gəlir,*
*Sürgünlüyündə Təbrizin,*
*Mısığın sallamış adresər.*

*Dustaq qoxulu xiyabanarında*
*Şəhidlərinə darıxır daş ürəyi,*
*Özgürlüyün darıxdığı hər yerdə Təbriz var.*[37]

Şair sıxıntısını, dərdini, qəmini bu şəkildə ifadə etməyə çalışır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində əsas müddəalar ümumiləşdirilmiş, öyrənilən mövzunun gələcəkdə davamı üçün konkret tövsiyə və təkliflər verilmiş, tədqiqat prosesində əldə olunan elmi qənaətlər aşağıdakı bəndlər şəkildə qruplaşdırılmışdır:

- Müasir Cənubi Azərbaycan poeziyası XX əsrin 20-ci illərində Şimali Azərbaycanda gedən yeni ədəbi meyillərlə bağlı inkişaf etmiş, ədəbi əlaqə şəraitində yenilənmiş və daha da qüvvətlənmişdir. Güney poeziyasının məzmun və forması yalnız eyni yerdə ilişib qalmamış, XX əsrin 40-cı illərində milli hərəkatla bağlı daha da inkişaf etmişdir.
- 1946-cı ilin dekabr ayında Azərbaycan Milli Hökumətinin süqutundan sonra siyasi repressiyalara, təqiblərə və mühacirətə məcbur edilən cənublu ədiblərin fəaliyyətində yeni axtarışlar olmuş, 1978-1979-cu il İran İslam İnqilabından sonra milli ədəbi proses öz inkişafının yeni dövrünə qədəm qoymuşdur.
- 1979-cu il 16 yanvarda Məhəmməd Rza şah Pəhləvinin İrandan qaçması və şah rejiminin yıxılması ilə daha rahat şəraitdə yazıb-yaratmaq ümidi ilə qələmə sarılan şair və yazıçılarımız öz arzularını, istəklərini ifadə etməyə, xalqın arasında milli ruhu yüksəltməyə çalışır və milli birliyə çağırışlar edirdilər. Elə həmin

[37] Güney Azərbaycan antologiyası (Çağdaş dövr) / tərt. ed. və ön söz P.Məmmədli – Bakı: TEAS Press, – 2015, s. 299

illərdə fəaliyyətə başlayan mətbu orqanlar Cənublu həmvətənlərimizin ən mötəbər tribunalarına çevrildi.

- İran İslam İnqilabından sonra Cənubi Azərbaycan poeziyasının önündə gedən Məhəmmədhüseyn Şəhriyar, Bulud Qaraçorlu Səhənd, Yəhya Şeyda, Həbib Sahir, Kərim Sönməz, Həsən Məcidzadə (Savalan), Məhəmmədtağı Zehtabi, Həmid Nitqi, Haşım Tərlan, Alov, Savalan Valeh, Müzəffər Dirəfşi, Qaflantı, Saplaq, Şəhrək, Məhəmmədəli Məhzun, Türkoğlu, Aydın, Daşqın və başqa qorxmaz şairlərin "Varlıq", "Dədə Qorqud", "Çənlibel", "Koroğlu" və s. mətbuat orqanlarında dərc etdirdikləri şeirləri demokratik və üsyan ruhlu ədəbiyyatın ilk müjdəçiləri oldu.

- Yuxarıda adları çəkilən qələm sahiblərinin əsərlərində türkçülük, azərbaycançılıq meyli, eyni zamanda üsyankar ruh çox qüvvətli olmuşdur. Bu dövrdə yaranan poeziyanın özəyini vətənpərvərlik, azadsevərlik, mübarizlik, milli dəyərlərə qayğı, doğma dilə məhəbbət, folklora, şifahi xaq ədəbiyyatına diqqət kimi yüksək ideallar təşkil etmişdir.

- Mövcud ictimai-siyasi vəziyyətdən asılı olaraq, susmaq məcburiyyətində qalan ədəbiyyat indi daha çox xalqın istəyinin tərcümanı ola bilmişdi.

- 1979-cu il inqilabı poeziyaya yeni mövzular da gətirmişdi. Amma bir məsələni də nəzərə almaq lazımdır ki, inqilabdan sonra yaranan və meydana çıxan bədii ədəbiyyatda, daha doğrusu, poeziyada əsas problemlərdən biri dillə, digəri isə vəznlə bağı idi. Vəzn və ölçü problemi təkcə ideyanı ifadə etməkdə çətinlik yaratmırdı, eyni zamanda, yeni ədəbi növ və janrların meydana çıxmasını ləngidir, ədəbiyyatın işini çətinləşdirirdi.

- Ötən əsrin 80-ci illərində Güneyli yazalar anadilli poeziyada milli-mənəvi dəyərlərin mühafizəçisi mövqeyində çıxış edirdilər. İnqilabdan öncə bu əsərlərin əksəriyyəti fars dilində yazılırdısa, inqilabdan sonra, əsasən, Azərbaycan dilində yazılmağa başadı.

- 1990-cı ildən sonra Cənubi Azərbaycan ədəbiyyatında yeni bir canlanma oldu. 1991-ci ildə Azərbaycan Respublikasının öz müstəqilliyini yenidən bərpa etməsi və sərhədlərin açılması Arazın hər iki tayında ədiblərin daha rahat ünsiyyətinə yeni zəmin yaratdı.

- 1990-cı illərdə Güney Azərbaycan poeziyasında modern şeir əhəmiyyətli dərəcədə fəallaşdı, yeni şeir şəkilləri, forma və məzmun

axtarışları meydana çıxdı. 1990-cı ilərin modern şeiri Bəxtiyar Əlimuradinin, Fəranək Fəridin, Ərsan Ərelin, Rüqəyyənin, Vai Gözətinin, Nəsrin Şirdilin, Əzim Ağayinin və digər çağdaş şairlərin qələmi ilə yeni inkişaf pilləsinə yüksəldi.

Dissertasiya işində əldə edilən nəticələr əsasında aşağıdakı təkliflər irəli sürülür:

1. Cənubi Azərbaycan poeziyası barədə tədqiqatları bundan sonra da davam etdirməyə böyük ehtiyac vardır. Mövcud tədqiqatda Cənubi Azərbaycan ədəbiyyatının İran İslam İnqilabından sonrakı dövrü kompleks şəkildə araşdırılsa da, Hərəkatın Məhəmmədhüseyn Şəhriyar, Bulud Qaraçorlu Səhənd, Kərim Sönməz, Həbib Sahir, Haşım Tərlan, Həmid Nitqi, Əlirza Nabdil, Abbas Bariz, Mədinə Gülgün kimi görkəmli nümayəndələrinin yaradıcılıqları ayrıca elmi tədqiqat əsəri üçün kifayət qədər material verir.

2. Cənubi Azərbaycan poeziyasını həm bu sahələrdə, həm də tarixi keçmişimiz üzrə sistemli araşdırmalar aparandan sonra, eyni zamanda, tarixi həqiqətlər obyektiv işıqlandırılandan sonra daha düzgün tədqiq etmək olar.

3. Cənubi Azərbaycanın ictimai-siyasi həyatında, Cənubi Azərbaycanla bağlı məsələlərdə Heydər Əliyevin rolu, onun ümummilli lider kimi Güney ədəbiyyatına və Güneyli şairlərin məişətinə, Cənubi Azərbaycanda yaşayan ədəbiyyat adamlarına diqqət və qayğının göstərilməsi məsələlərinin geniş şəkildə işıqlandırılması, tədqiq olunması bir vəzifə kimi ədəbiyyatşünaslığımızın qarşısında durmaqdadır.

4. Güney ədəbiyyatı nümayəndələrinin əsərlərini silsilə şəklində nəşr etmək Cənubdakı ədəbiyyatın həm təbliği, həm də tədqiqi baxımından faydalı ola bilər.

5. Azərbaycan Respublikasının təhsil müəssisələrində – orta məktəblərdən tutmuş ali məktəblərə qədər – Güney ədəbiyyatının tədrisini genişləndirmək milli birliyimizi qorumaq üçün zəruri vəzifələr sırasındadır.

**Dissertasiya işinin əsas məzmunu və müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Cənubi Azərbaycanda 1979-cu il inqilabından sonrakı ictimai-ədəbi mühit // – Bakı: Filologiya məsələləri, – 2022. № 13, – s.416-425.
2. İran İslam İnqilabından sonrakı illərdə Cənubi Azərbaycan poeziyasında mənəvi yasaqlara etiraz // – Bakı: Əlyazmalar yanmır, – 2022. № 2 (15), – s.41-50.
3. 1970-80-ci illər Cənubi Azərbaycan poetik nümunələrində milli-mənəvi dəyərlər // – Bakı: Dil və ədəbiyyat, – 2023. № 1 (121), – s.184-187.
4. Cənubi Azərbaycan poeziyasının İran İslam İnqilabından sonrakı dövrdə ümumi mənzərəsi (mühacir sənətkarların yaradıcılığı əsasında) // – Bakı: Filologiya məsələləri, – 2023. № 8, – s.490-498.
5. Heydər Əliyev və Cənubi Azərbaycan ədəbiyyatı // Heydər Əliyev və mədəniyyət siyasəti mövzusunda beynəlxalq elmi-nəzəri konfransın materialları, – Bakı: – 2023, – s.211-214.
6. XX əsrin 80-ci illərindən sonrakı Cənubi Azərbaycan poeziyası vahid Azərbaycan ədəbi prosesinin parçası kimi // – Bakı: Dil və ədəbiyyat, – 2023. № 2 (122), – s.120-122.
7. XX əsrin ikinci yarısında Cənubi Azərbaycan poeziyasında ana dili məsələsi // – Bakı: Filologiya məsələləri, – 2023. № 4, – s.247-252.
8. Асадів, С.А. Поезія південного Азербайджану в 80-90-х роках XX століття // – Київ: Вісник науки та освіти, – 2023. № 2 (8), – с.52-63.
9. XX əsrin sonlarında Cənubi Azərbaycan ədəbiyyatında forma və məzmun yenilikləri // – Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2023. № 3, s.130-138.
10. Asadov, S.A. The journal “Varlig (Existence)” and South Azerbaijan literature // Тероии, школы и концепции устойчивого разития науки в современных условиях, Сборник статей по итогам, Международной научно-практической конференции, – Волгоград: – 3 мая, – 2023, – pp.78-80.

11. İki sahilin ümidi – Heydər Əliyev // Heydər Əliyev və Əlyazmalar İnstitutu mövzusunda elmi-nəzəri konfransın materialları, – Bakı: – 7 iyul, – 2023, – s.74-79.

Dissertasiyanın müdafiəsi _____________ 2024-cü il tarixində saat ________- da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı, Hüseyn Cavid pr. 115, Akademiya şəhərciyi, Əsas Bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ _______________ 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.04.2024
Kağızın formatı: A5
Həcm: 42 816
Tiraj: 100